# Abşeron: təhsildə uğurlar artır



***❒ Hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Sevindirici haldır ki, müstəqil Azərbaycanda iqtisadiyyatın tərəqqisi milli təhsilin inkişafına öz müsbət təsirini göstərir. Son illər ölkəmizin hər yerində olduğu kimi, Abşeron rayonunun təhsil sistemində də nəzərəçarpan uğurlar əldə olunur.***







Abşeron Rayon Təhsil Şöbəsinin müdiri Nazilə Məmmədova fəxrlə bildirdi ki, rayonun təhsil sistemində qazanılan uğurlar, ilk növbədə, dövlətimizin, şəxsən Prezident İlham Əliyevin bu mühüm sahənin inkişafına göstərdiyi yüksək diqqət və qayğının sayəsində mümkün olub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təhsilimizə, Azərbaycan elminə, gənc nəslin inkişafına yönəlmiş qayğısı və dəstəyi də rayonun təhsil işçiləri tərəfindən dərin razılıq hissi ilə qarşılanır.

Hazırda Abşeron rayonu üzrə 10 şəhər məktəbi, 18 qəsəbə və 13 kənd məktəbi, ümumilikdə, 40 tam orta, 1 ümumi orta təhsil müəssisəsi fəaliyyət göstərir. Rayonda 3963 müəllim 57 min 476 şagirdin təlim tərbiyəsi ilə məşğul olur.

N.Məmmədova sonra bildirdi ki, 2018-2019-cu tədris ilində ölkə Prezidentinin sərəncamlarına əsasən, rayonun ümumi təhsil müəssisələrində çalışan bir sıra müəllimlər təhsilin inkişafında xüsusi xidmətlərinə görə təltif olunublar. Belə ki, bir müəllim "Əməkdar müəllim" fəxri adına layiq görülüb, həmçinin gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə görə, bir müəllim "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, iki müəllim isə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı" ilə təltif olunublar.

Son illər ümumi orta və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanlarının nəticələrində, bütövlükdə isə ali və orta ixtisas təhsili müəssisələrinə qəbulda rayon üzrə müsbət dinamika müşahidə olunmaqdadır. Belə ki, bu il 2203 nəfər tam orta təhsil pilləsi üzrə məktəbi bitirib, 2172 nəfəri buraxılış imtahanlarında iştirak edib və 1724 nəfər hər üç fənn üzrə müvəffəq qiymət alıb. Attestat alanların 82,6 faizi (1801 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib. Ümumilikdə, attestat alanların 88,7 faizi (1933 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib. 2018-ci il qəbul imtahanlarının nəticələrinə əsasən, rayonun 1116 məzunu (imtahanlarda iştirak edənlərin 60 faizi) tələbə adını qazanmışdır.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Xırdalan şəhər 9 nömrəli, Masazır kənd 2, 3 nömrəli tam orta məkəbləri də daxil olub. Rayon məktəblərində diaqnostik qiymətləndirmə zamanı ixtisas və metodika üzrə topladığı ballara uyğun olaraq dərs bölgüsü aparılmışdır. Diaqnostik qiymətləndirmədə zəif nəticə göstərən müəllimlər ixtisasartırma kurslarına göndərilmişdir.

Rayon təhsil şöbəsinin fəaliyyət planına əsasən, ümumtəhsil məktəblərində təlimin keyfiyyətinin yaxşılaşdırılması, fənlərin tədrisinin yüksəldilməsi, müəllim və şagirdlərin təlimə maraqlarının artırılması, onlarda tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi məqsədilə ötən ilin noyabr ayında tarix-coğrafiya, dekabrında ibtidai sinif və riyaziyyat, bu ilin yanvar ayında xarici dillər, fevral ayında dil ədəbiyyat, martında fiziki tərbiyə və çağırışaqədərki hazırlıq, aprel ayında isə kimya və biologiya üzrə fənn aylıqları keçirilmişdir.

Rayonun məktəblərində "Hər bir uşaq istedadlıdır" devizi ilə ayrı-ayrı fənlər, eləcə də idman növləri və incəsənətin müxtəlif sahələri üzrə seçilən istedadlı şagirdlərin müsabiqə, yarış və intellektual oyunlarda iştirakı təşkil edilmiş, kitab klubları, oxu marafonu, konfranslar, yığıncaqlar, kitabxana xətti ilə "Mütaliə aylığı" keçirilmişdir.

Xırdalan şəhər 2, 5, Masazır kənd 1 və Saray qəsəbə 3 nömrəli tam orta məktəblərində "Kiçik akademiya" haqqında əsasnaməyə uyğun olaraq, "Kiçik akademiya"nın fəaliyyəti humanitar, təbiət, fizika-riyaziyyat, texniki-sosial-iqtisadiyyat bölmələri üzrə təşkil edilmişdir.

"Kiçik akademiya"larda nailiyyəti olan şagirdlər cəmlənmişdir. Saray qəsəbə 3 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Sərxan Osmanov UNESKO-nun keçirdiyi "Dünyanın səsini duyaq" yarışmasına qatılaraq hidravlik sistemlə işləyən qaldırıcı kran nümayiş etdirmiş, birinci yer tutmuşdur. Vüsal Bayramov və Sərxan Osmanov BMU-nin keçirdiyi "Qış-elm festivalı"nda fizika fənni üzrə elektriklə işləyən cihazlar, Aytac Əmrahova "Bioloji aktiv nöqtələri tapan" aparat nümayiş etdirmiş, Vüsal Bayramov birinci yerə, Sərxan Osmanov III yerə, Aytac Əmrahova isə sertifikata layiq görülmüşlər.

N.Məmmədova, həmçinin bildirdi ki, ötən tədris ilində Abşeron Rayon Təhsil Şöbəsi Sumqayıt və Qubadlı təhsil şöbələri ilə birgə əməkdaşlıq müqaviləsi imzalayıb. Tədbirlər planında nəzərdə tutulan bütün tədbirlər uğurla icra olunub. Bu əməkdaşlıq həm şagirdlər, həm də müəllimlər arasında sağlam rəqabət yaradıb.

Təqdirəlayiq haldır ki, rayonda istedadlı şagirdlərin aşkar olunması, onların arasında sağlam rəqabət mühitinin yaradılması, aşağı sinif şagirdlərinin müxtəlif fənlərin dərindən öyrənilməsinə marağın artırılması, onlarla məqsədyönlü işlərin aparılması və beynəlxalq olimpiadalara hazırlıq mərkəzlərinə cəlb olunacaq şagirdlərin müəyyən edilməsi məqsədilə fənn olimpiadaları keçirilmişdir. Respublika turunda rayonun ümumi təhsil məktəbləri üzrə 9 nəfər iştirak etmişdir.

Onlardan Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Mədinə Məmmədova respublika final mərhələsində 3-cü yer (bürünc medal) tutmuş, 8 şagirdə isə respublika turunda iştirak etdiyinə görə Təhsil Nazirliyi tərəfindən sertifikat verilmişdir.

Məktəblərarası V fənn müsabiqələrinin final mərhələsində rayonun 126 şagirdi iştirak etmiş, onlardan Ceyranbatan qəsəbə 2 nömrəli məktəbin VI sinif şagirdi Xasay Seyfullalı informatika fənni üzrə respublika turunda birinci yerə layiq görülmüş, 6 nəfər riyaziyyat fənnindən, 1 nəfər isə fizika fənnindən həvəsləndirici sertifikatlar almışlar.

Təhsil şöbəsinin müdirinin sözlərinə görə, Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə təşkil olunmuş "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində 40 şagird Lənkəran-Masallı-Astara istiqaməti üzrə səfərdə olmuşdur. Abşeronlu şagirdlər "Nə?, Harada?, Nə zaman?" bilik yarışmasında iştirak edərək ikinci və Masallıdakı "Asan həyat" kompleksindəki "İntellektual Mərkəz"də keçirilən "Breynrinq" yarışmasında birinci yeri qazanmışlar.

Xırdalan şəhərində Heydər Əliyev Parkında və bütün ümumtəhsil müəssisələrində yeniyetmə və gənclər arasında mütaliə mədəniyyəti və oxu vərdişinin inkişafı, kitaba marağın artırılması məqsədi ilə "Oxu günü" keçirilmişdir.

Rayon məktəbləri arasında idmanın kütləviliyinə nail olmaq, şagirdlərin asudə vaxtlarını səmərəli təşkil etmək və fiziki hazırlığını artırmaq məqsədilə müxtəlif sahələr əhatə olunmaqla istedadları ilə fərqlənən şagirdləri aşkara çıxarmaq üçün hərbi idman oyunları və yarışları, olimpiada, festivallar, görüşlər keçirilmişdir.

Ümumtəhsil məktəbləri arasında VII Ümumrespublika "Gənc xilasedici və yanğınsöndürən" yarışması keçirilmiş, Novxanı kənd 1 nömrəli tam orta məktəbin komandası rayon üzrə I, respublika yarışında isə II yerə layiq görülmüşdür.

"Məktəblərarası respublika çempionatı"nın zona yarışında atletika üzrə Novxanı kənd 2 nömrəli tam orta məktəbin komandası beşinci yerə, şahmat üzrə Saray qəsəbə 2 nömrəli tam orta məktəbin komandası respublikada ikinci yerə, basketbol üzrə Xırdalan şəhər 3 nömrəli tam orta məktəbin komandası Qusar rayonunda keçirilən zona yarışında üçüncü yerə, Abşeron rayonun qızlardan ibarət voleybol komandası zona mərhələsində 10 rayon arasında birinci yerə, respublikada isə üçüncü yerə çıxmışdır.

N.Məmmədova sonda qeyd etdi ki, təhsil naziri cənab Ceyhun Bayramov ötən il dekabrın 14-də Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Abşeron, Qubadlı, Kəlbəcər, Zəngilan rayon və Sumqayıt şəhər sakinlərinini qəbul etmiş, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar vermişdir.

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***

